# Futzal yarışları idman tariximizə ən yaddaqalan hadisələrdən biri kimi daxil olacaq

Ölkəmizdə idmanın inkişafı, onun kütləviləşməsinə nail olunması istiqamətində çox mühüm tədbirlərin həyata keçirilməsinin, məqsədyönlü işlərin aparılmasının hər birimiz şahidiyik. Bu gün qürur hissi ilə qeyd etmək olar ki, xüsusilə yeniyetmə və gənclər arasında idmana maraq gündən-günə artmaqda, bu sahədə qazanılan uğurların sayı çoxalmaqdadır. Son illər Azərbaycan digər sahələrdə olduğu kimi, idmanda da mühüm nailiyyətlər əldə etmişdir. Dövlət başçısı İlham Əliyevin idmana diqqət və qayğısı sayəsində respublikamız artıq idman ölkəsi kimi dünyada öz layiqli yerini tutub. Hazırda müstəqil Azərbaycanın idmançıları dünya miqyasında böyük uğurlar qazanırlar. Ölkəmiz dünya idman ailəsinə möhtəşəm mərkəz kimi daxil olub. İndi istər Bakı, istərsə də bölgələrdə region və beynəlxalq əhəmiyyətli idman yarışları ən yüksək səviyyədə keçirilir. Dövlət siyasətinin nəticəsi olaraq bütün rayonlarda gözəl və hər cür şəraiti olan idman kompleksləri yaradılır. Belə komplekslər bir daha sübut edir ki, ölkəmizdə idmanın kütləviliyini artırmaq, gənclərin idmana marağını təmin etmək və bu sahədə yeni-yeni qələbələr qazanmaq üçün dövlət tərəfindən məqsədyönlü işlər həyata keçirilir. Təsadüfi deyil ki, respublikamızda idman sahəsinə göstərilən diqqət artıq bütün dünyada böyük rəğbətlə qarşılanır.













Azərbaycan təhsilinin inkişafı istiqamətində bir sıra yeniliklərə, əsaslı dəyişikliklərə nail olan Təhsil Nazirliyi də dövlət siyasətinin prioritet istiqamətlərindən biri sayılan idmanın yeniyetmə və gənclər arasında kütləviliyini artırmaq, onların asudə vaxtlarının daha səmərəli və mənalı keçirmələri üçün bu sahəyə xüsusi diqqət ayırır. İdmanla bağlı bir çox təşkilatlarla əməkdaşlıq edən Təhsil Nazirliyinin bu istiqamətdə apardığı işlər, reallaşdırdığı tədbirlər olduqca təqdirəlayiqdir. Nazirliyin Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi ilə yaratdığı sıx işgüzar əlaqələr məhz bu baxımdan xüsusilə fərqlənir.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının bir strukturu kimi 2008-ci ildə yaradılan Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi tələbələr arasında futbolun kütləviliyini artırmaq, onun inkişafına dəstək vermək, daha çox komandaların çempionatlarda iştirakını təşkil etmək, tələbə futbol yığma komandalarının formalaşdırılması və yarışların yüksək səviyyədə keçirilməsi, eyni zamanda bu komandaların beynəlxalq səviyyədə keçirilən yarışlarda iştirakını təmin etmək istiqamətində bir sıra işlər görür.

ATFF İB yaranandan tələbələr arasında futbolun təbliği ilə əlaqədar ancaq böyük futbolun çempionatları keçirilirdi və iştirak edən komandaların sayı 30-a çatmırdı.

2015-ci ilin may ayında ATFF İB -nin İcraiyyə Komitəsinin yeni tərkibinin və Federasiyanın prezidentinin seçilməsindən sonra bu qurumun fəaliyyətində canlanma hiss olunmağa başlandı. 2016-2020-ci illərdə ATFF İB-nin inkişaf konsepsiyası və fəaliyyət planı təsdiq edildi. Bu sənədlərin əsas məqsədi ölkəmizdə futbol idman növünün ali və orta ixtisas məktəblərində hərtərəfli inkişafına nail olmaqdır. ATFF İB -nin futbolun inkişafı, onun kütləviliyini daha da artırmaq, əhatə dairəsinin genişləndirilməsi istiqamətində gördüyü işlərdən biri də bu il respublikamızda tələbələr arasında ilk dəfə olaraq futzal üzrə Respublika birinciliyinin keçirilməsi oldu. Bununla əlaqədar əsasnamə hazırlanaraq təsdiq edildi və bu yarışın daha mütəşəkkil keçirilməsi və daha çox tələbə komandaların cəlbinə nail olmaq üçün ciddi hazırlıq işlərinə start verildi. AFFA, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Təhsil, Gənclər və idman nazirlikləri, Futzal Futbol Federasiyasının dəstəyi ilə keçirilən futzal üzrə Respublika birinciliyində ali təhsil ocaqları ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirak etməsi də bu il tətbiq edilən yeniliklərdəndir. Onu da qeyd edək ki, aprelin 18-də Bakı İdman Sarayında təhsil nazirinin müavinlərinin, AFFA prezidenti Rövnəq Abdullayevin, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin, Gənclər və İdman Nazirliyinin, Futzal Futbol Federasiyasının nümayəndələrinin, eləcə də ali təhsil müəssisələrinin rəhbərlərinin iştirakı ilə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən futzal üzrə Respublika birinciliyinin açılış mərasimi özünün möhtəşəmliyi ilə təhsil ictimaiyyəti, eləcə də idmansevərlər üçün əlamətdar bir hadisəyə çevrildi.

40 komanda üzrə 800-ə yaxın tələbənin qatıldığı nüfuzlu yarışda demək olar ki, respublikanın bütün bölgələri əhatə olunub. ATFF İB tərəfindən idman dəstləri ilə tam təmin olunan komandaların hər biri bu yarışlarda yüksək əzmkarlıq nümayiş etdirərək təmsil etdikləri təhsil müəssisəsinə qalibiyyət qazandırmaq arzusundadır.

Artıq respublika birinciliyinin yarımfinal oyunları başa çatıb və finala vəsiqə qazanan ali və orta ixtisas təhsili müəssisələrinin komandaları müəyyən edilib. İyun ayının əvvəlində futzal üzrə Respublika birinciliyinin final oyunu keçiriləcək.

Yarışlarda I, II, III, IV yerləri tutan komandalar AFFA-nın, Təhsil Nazirliyinin, Futzal Federasiyasının, ATFF İB-nin müvafiq diplomları, kuboklar və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar. Bundan başqa, futzal birinciliyində fərqlənən 5 tələbə futbolçunun da xüsusi mükafatlarla təltif olunması nəzərdə tutulur. Qalib komanda beynəlxalq yarışlara cəlb olunacaq.

Ümidvarıq ki, ilk dəfə olaraq ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzal üzrə Respublika birinciliyinin keçirilməsinin özünün genişmiqyaslılığı, mütəşəkkilliyi, eyni zamanda ictimaiyyət tərəfindən maraqla qarşılanması baxımından idman tariximizə ən yaddaqalan hadisələrdən biri kimi daxil olacaq.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*